*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*



**Heydər ƏLİYEV**


# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 13 yanvar 2018-ci il № 3 (2219) Qiyməti 25 qəpik


## Prezident İlham Əliyev 2018-ci ilin "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsi haqqında Sərəncam imzalayıb

*Prezident İlham Əliyev 2018-ci ilin Azərbaycan Respublikasında "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsi haqqında Sərəncam imzalayıb.*

AZƏRTAC xəbər verir ki, Sərəncamda 1918-ci il mayın 28-də Azərbaycan xalqının həyatında misilsiz hadisə baş verdiyi, Müsəlman Şərqində ilk parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin qurulduğu bildirilir. Qeyd edilir ki, cəmi iki ilə yaxın yaşamış Azərbaycan Xalq Cümhuriyyəti zəngin dövlət quruculuğu təcrübəsi ilə milli dövlətçilik tarixində silinməz izlər qoyub, xalqın qəlbində azadlıq və istiqlal duyğularını gücləndirməklə respublikanın gələcək müstəqilliyi üçün etibarlı zəmin hazırlayıb.

Sərəncamda bildirilir ki, 2018-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100-cü ildönümü tamam olur. Bu əlamətdar hadisənin dövlət səviyyəsində layiqincə qeyd edilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" 2017-ci il 16 may tarixli 2867 nömrəli Sərəncamına əsasən, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə müvafiq tədbirlər planının hazırlanıb həyata keçirilməsi tapşırılıb. Bu tədbirlərlə yanaşı, Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100-cü ildönümü ilə əlaqədar ölkədə və ölkə xaricində silsilə tədbirlərin həyata keçirilməsi nəzərdə tutulub.

## 20 Yanvar faciəsinin ildönümü ilə əlaqədar Azərbaycan Ordusunda tədbirlər keçiriləcək

*Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin Sərəncamı ilə təsdiq olunmuş "20 Yanvar faciəsinin iyirmi səkkizinci ildönümünün keçirilməsi ilə bağlı tədbirlər planı"na əsasən, Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan Ordusunda silsilə tədbirlərin icrası ilə əlaqədar tapşırıq verib.*

Əlahiddə Ümumqoşun Ordusu, birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrində Qanlı Yanvar hadisələri ilə bağlı "dəyirmi masa"ların, konfrans, toplantı və xüsusi məşğələlərin, kitab və rəsm sərgisinin təşkili, Həzi Aslanov adına Mərkəzi Zabitlər Evi, Naxçıvan və Gəncə Qarnizon Zabitlər Evləri kollektivlərinin iştirakı ilə faciəyə dair bədii kompozisiya və tamaşaların, eləcə də sənədli filmlərin nümayiş etdirilməsi nəzərdə tutulub.

Keçirilən tədbirlərdə şəhid olanların ailə üzvləri, hadisələrin iştirakçıları ilə şəxsi heyətin görüşlərinin təşkili, həmçinin Vətənimizin azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda həyatlarını qurban verənlərin xatirəsinə ucaldılmış abidələrin ziyarət olunması planlaşdırılıb.

## Ali Baş Komandan İlham ƏLİYEV:

# Azərbaycan Ordusu bundan sonra da güclənəcək və istənilən tapşırığı yerinə yetirməyə hazırdır



*Yanvarın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.*

Dövlətimizin başçısı iclasda giriş nitqi söyləyib. O, qeyd edib ki, 2017-ci ildə ölkəmiz sürətlə və uğurla inkişaf etmişdir. "Həyatımızın bütün sahələrində əldə edilmiş nəticələr ölkəmizin ümumi inkişafına böyük töhfə vermişdir. Azərbaycan xalqı 2017-ci ildə də sabitlik və təhlükəsizlik şəraitində yaşamışdır. Bu gün dünyanın müxtəlif yerlərində risklər, təhlükələr artır, qanlı münaqişələr, qarşıdurmalar geniş vüsət alır. Bir sözlə, dünyada risklər artmaqdadır və görünür ki, bu tendensiyalar hələ davam edəcək. Belə bir mənzərə ilə üzləşərək, əlbəttə ki, dünya ictimaiyyəti narahatlıq hissi keçirir. Azərbaycanda isə sabitlik, təhlükəsizlik, normal həyat təmin edilir. Hesab edirəm ki, indiki dünyada mövcud olan mürəkkəb geosiyasi vəziyyəti nəzərə alaraq bizdə bu sahədə əldə edilmiş nəticələr yüksək qiymətə layiqdir."

Prezidentin sözlərinə görə, sabitlik olmadan heç bir ölkə inkişaf edə bilməz. "Sabitlik pozulan zaman inkişaf da dayanır, ölkə iqtisadiyyatı tənəzzülə uğrayır, sərmayə qoyuluşu dayanır. Bir sözlə, sabitlik hər bir ölkənin inkişafı üçün başlıca şərtdir. Azərbaycanda isə sabitliyin mənbəyi Azərbaycan xalqıdır, onun iradəsidir və eyni zamanda, bizim apardığımız siyasətdir. Çünki bizim siyasətimiz milli maraqlara söykənir, milli maraqlarımız bizim üçün hər şeydən üstündür. Ölkəmizin təhlükəsizliyi, sabitliyi, iqtisadi və sosial inkişafı, beynəlxalq arenadakı artan rolu sabitliyin təminatçısıdır.

Əminəm ki, 2018-ci ildə də Azərbaycanda bu müsbət meyillər daha da güclənəcək. Xalq-iqtidar birliyi bizim uğurlarımızın əsas şərtidir və xalq-iqtidar birliyi bu gün də göz qabağındadır. Bizim uğurlu siyasətimizin təməlində xalq tərəfindən göstərilən dəstək dayanır. Bu müsbət meyillərin gücləndirilməsi, əlbəttə ki, ölkəmizin uzunmüddətli, dayanıqlı inkişafını təmin edəcəkdir."

Məcburi köçkünlərin problemlərinin daim diqqət mərkəzində olduğunu bildirən Prezident İlham Əliyev qeyd edib ki, Cocuq Mərcanlı kəndinin bərpası tarixi nailiyyətdir, indi 150 evdən ibarət gözəl qəsəbə yeni həyatını yaşayır. "Köçkünlər o qəsəbəyə qayıdıblar, qayıdırlar və bu, tarixi, əlamətdar hadisədir. Azərbaycan dövləti Cocuq Mərcanlının timsalında bir daha göstərib ki, heç vaxt işğalla barışmayacaq. Azərbaycan xalqı heç vaxt bu vəziyyətlə barışmayacaq və bütün köçkünlər bir arzu ilə yaşayırlar ki, tezliklə öz doğma torpaqlarına qayıtsınlar. Cocuq Mərcanlının qısa müddət ərzində bərpası, yenidən qurulması onu göstərir ki, işğaldan azad ediləcək bütün ərazilərdə biz qısa müddət ərzində bütün təmir-bərpa işlərini aparacağıq, şəhərləri, kəndləri yenidən quracağıq və bu gün ağır vəziyyətdə, dağılmış vəziyyətdə olan şəhər və kəndlərimizə tezliklə həyat qayıdacaq.

**(Ardı 2-ci səhifədə)**

## Ali Baş Komandan İlham ƏLİYEV:

# Azərbaycan Ordusu bundan sonra da güclənəcək və istənilən tapşırığı yerinə yetirməyə hazırdır

(Əvvəli 1-ci səhifədə)



Eyni zamanda, 2017-ci ildə Şıxarx qəsəbəsində 1170 ailə üçün yeni şəhərcik salınıb. Bu da əlamətdar hadisədir. Təkcə ona görə yox ki, böyük köçkün şəhərciyi yaradılıb. Ona görə ki, Şıxarx qəsəbəsi vaxtilə işğal altında olan ərazidir. Bu ərazi erməni işğalçılarından təmizlənmişdir, azad edilmişdir və o yerdə yeni böyük şəhərciyin salınması bir daha onu göstərir ki, Dağlıq Qarabağ bizim əzəli torpağımızdır. Bu, həmişə belə olub, bu gün belədir, sabah da belə olacaq və Dağlıq Qarabağ probleminin həlli ancaq ölkəmizin ərazi bütövlüyü çərçivəsində mümkündür. Bunun heç bir başqa yolu yoxdur."

Öz çıxışında Dağlıq Qarabağ problemindən söhbət açan dövlət başçısı bəyan edib ki, bizim prinsipial mövqeyimiz ədalətli mövqedir, beynəlxalq hüquqa əsaslanan mövqedir və daha çox beynəlxalq dəstək qazanan mövqedir. "Bunu əks etdirən bir neçə önəmli hadisə olmuşdur. Onlardan biri Dağlıq Qarabağda separatist rejim tərəfindən keçirilmiş qanunsuz "referendum"un dünya ictimaiyyəti tərəfindən tanınmamasıdır. Həm qonşu ölkələr, həm Avropa ölkələri, Avropa İttifaqı, beynəlxalq təşkilatlar "referendum"un tanınmaması haqqında birmənalı şəkildə ciddi bəyanatlar vermişlər. Bu bəyanatlar bir daha onu göstərir ki, bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır və bu dəstək getdikcə daha da artır.

Bilirsiniz ki, ilin sonunda Avropa İttifaqının "Şərq tərəfdaşlığı" Zirvəsində qəbul edilmiş Bəyannamədə də "Şərq tərəfdaşlığı"na üzv olan ölkələrin ərazi bütövlüyü, suverenliyi Avropa İttifaqı tərəfindən birmənalı şəkildə dəstəklənmişdir. Bu, işğalçı Ermənistana növbəti zərbə olmuşdur. Bu, ədalətin təzahürüdür və eyni zamanda, onu göstərir ki, bu gün Avropa qurumları, dünya mərkəzləri həm Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı, eyni zamanda, ümumiyyətlə, dünyada gedən proseslərlə bağlı daha müsbət yanaşma ortaya qoyurlar. O da həqiqətdir ki, hazırda Avropanın özü separatizmdən əziyyət çəkir və görür ki, separatizm nədir. Biz isə aqressiv separatizmlə üzləşmişik. Bizə qarşı soyqırımı törədilmişdir. Bizim vətəndaşlarımız öz doğma torpaqlarından silah gücünə çıxarılmışdır. Əlbəttə, dünyada, o cümlədən Avropada separatizmin baş qaldırması beynəlxalq ictimaiyyətə bir siqnaldır ki, yalnız vahid yanaşma tətbiq olunmalıdır. Biz həmişə bunu demişik. Mən dəfələrlə bunu deyirəm ki, bütün münaqişələrə, bütün separatizm təzahürlərinə vahid yanaşma tətbiq olunmalıdır, ikili standartlara yer olmamalıdır, bundan əl çəkilməlidir. Biz bunu artıq görürük. Hesab edirəm ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün bu, önəmli hadisələrdir. Azərbaycan öz prinsipial mövqeyindən geri çəkilməyəcək və ölkəmizin ərazi bütövlüyünün bərpası bizim üçün əsas məsələdir."

Azərbaycan Prezidenti İlham Əliyev yenə də ordu quruculuğu sahəsində həyata keçirilən məqsədyönlü dövlət siyasətindən danışaraq vurğulayıb ki, bu gün beynəlxalq reytinqlərə görə, Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. "Ordumuz üçün nə lazımdırsa, biz onu da edirik. Ordumuzun maddi-texniki bazası möhkəmlənir. Hərbi bazalar, şəhərciklər, hərbi hissələr yenidən qurulur, əsaslı təmir edilir. Bizim hərbi şəhərciklərimizin, bazalarımızın, hissələrimizin 80 faizi artıq beynəlxalq standartlara cavab verir. Təmirə ehtiyacı olan qalan hərbi hissələrin təmir işləri növbəti illərdə yekunlaşmalıdır. Nə qədər lazımdırsa vəsait ayrılır və ayrılacaq. O cümlədən yeni müasir silahların alınması üçün lazım olan vəsait ayrılır. Yoxsul Ermənistandan fərqli olaraq, biz öz hesabımıza yaşayırıq, o cümlədən hərbi gücümüzü öz hesabımıza artırırıq. Ermənistandan fərqli olaraq heç kimdən dilənmirik, heç kimə yalvarmırıq, kredit üçün müraciət etmirik. Ona görə Azərbaycan ictimaiyyəti və düşmən bilməlidir ki, Azərbaycan Ordusu bundan sonra da güclənəcək və istənilən tapşırığı yerinə yetirməyə hazırdır."

Prezident yekun çıxışında bir daha qeyd edib ki, Azərbaycan bu gün dünya miqyasında müstəqil siyasət aparan ölkələrdən biridir. "Belə ölkələrin sayı çox deyil, xüsusilə əhali və ərazi baxımından böyük olmayan ölkələrə bu, o qədər də xas deyil. Biz isə müstəqillik yolu ilə gedirik və azad, müstəqil həyatımız bizim üçün hər şeydən üstündür. Ona görə iqtisadi potensialımız, sadəcə olaraq, bizə iqtisadi məsələlərin həlli üçün lazım deyil. Bizim iqtisadi potensialımız siyasi gücümüzü artırır, bölgədəki vəziyyətimizi möhkəmləndirir, imkan verir ki, ölkəmizin uzunmüddətli strategiyasını düzgün müəyyənləşdirək və onu icra edək."

Azərbaycanın dövlət başçısı çıxışının sonunda bildirib ki, bu il biz müstəqilliyimizin 100 illiyini qeyd edəcəyik. "100 il bundan əvvəl müsəlman aləmində ilk dəfə olaraq demokratik respublika yaradılmışdır. Biz fəxr edirik ki, bu respublikanı Azərbaycan xalqı yaradıb və bir daha bütün dünyaya nümayiş etdirib ki, Azərbaycan xalqı böyük xalqdır, istedadlı xalqdır, azad xalqdır. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması və iki il ərzində fəaliyyəti tarixi hadisə idi. Azərbaycan o ölkələrdəndir ki, hələ yüz il bundan əvvəl ən ülvi demokratik dəyərləri nəinki bəyan edib, öz praktiki fəaliyyətində onları təmin edib. Bugünkü Azərbaycan, müstəqil Azərbaycan Azərbaycan Xalq Cümhuriyyətinin varisidir. Biz Azərbaycan Xalq Cümhuriyyətinin bütün demokratik ənənələrinə sadiqik və bu ənənələri yaşadırıq. Ancaq onu da qeyd etməliyəm ki, indiki Azərbaycan Azərbaycan Xalq Cümhuriyyəti ilə müqayisə edilə bilməz. Çünki o vaxt çətinliklər də olub, müstəqilliyimiz tam imkan vermirdi ki, Azərbaycan müstəqil siyasət aparsın. İqtisadi çətinliklərimiz olub, torpaq itkilərimiz də olub və bizim tarixi şəhərimiz olan İrəvan Ermənistana verilmişdir. Ona görə, biz Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətini çox düzgün təhlil etməliyik. Bu müsbət və çətin məqamları gizlətməməliyik. Amma bütün çətinliklərə və əlbəttə ki, bizim üçün sağalmayan yara olan İrəvanın Ermənistana verilməsinə baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətini Azərbaycan dövləti və xalqı yüksək qiymətləndirir".

**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun şəxsi heyətinə məharət dərəcələrinin verilməsi üzrə sınaq imtahanları keçirilir



*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi döyüş hazırlığı planına əsasən, Azərbaycan Ordusunun zabit, gizir və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularına məharət dərəcələrinin verilməsi (təsdiqlənməsi) üzrə sınaq imtahanları keçirilir.*



Müxtəlif təlim mərkəzlərində və çöl-səhra şəraitində keçirilən sınaqlara cəlb edilən şəxsi heyətin ümumqoşun nizamnamələr, rəhbəredici və digər normativ sənədlərlə bağlı bilikləri üzrə məqbullar qəbul edilir və hərbi qulluqçuların fiziki hazırlığının səviyyəsi yoxlanılır.

Hərbi qulluqçuların döyüş hazırlığının, bacarıq və qabiliyyətlərinin yoxlanılması məqsədilə silahlanmada olan müasir zirehli texnikanın ştat silahından və atıcı silahlardan atışlar icra olunur, müxtəlif növ tırtıllı və təkərli döyüş maşınlarının, avtomobil texnikasının idarə edilməsi üzrə yoxlama tapşırıqları yerinə yetirilir.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Şəxsi heyətlə iş üzrə zabitlər və psixoloqların təlim-metodiki toplantısı keçirilib




*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi döyüş hazırlığı planına əsasən, birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələri komandirlərinin şəxsi heyətlə iş üzrə müavinləri və psixoloqların iştirakı ilə üçgünlük təlim-metodiki toplantı keçirilib.*

Tədbirdə çıxış edən Müdafiə nazirinin şəxsi heyət üzrə müavini general-leytenant Kərim Vəliyev ötən ildə hərbi bölmələrdə mənəvi-psixoloji hazırlıq və ictimaiyyətlə əlaqələr işinin hərbi qanunvericilik aktlarının tələblərinə uyğun olaraq təşkil olunduğunu xüsusi qeyd edib.

General-leytenant K.Vəliyev bildirib ki, toplantıya cəlb olunan zabit heyəti bundan sonra da öz vəzifə borclarını məsuliyyət hissi ilə yerinə yetirəcək, Ali Baş Komandanın və Müdafiə nazirinin şəxsi heyət qarşısında qoyduğu vəzifə və tapşırıqların öhdəsindən layiqincə gəlmək üçün var qüvvələrini əsirgəməyəcəklər.

Müdafiə Nazirliyinin idarə rəisi general-mayor Rasim Əliyev 2017-ci tədris ili ərzində hərbi vətənpərvərlik tərbiyəsi, mənəvi-psixoloji hazırlıq, hərbi intizamın yüksəldilməsi və digər sahələrdə görülmüş işlər və bu istiqamətdə 2018-ci tədris ilində qarşıda duran vəzifələr barədə ətraflı məruzə ilə çıxış edib.

Tədbirdə xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü və Silahlı Qüvvələrin yaranmasının 100 illiyi münasibətilə mədəni-kütləvi tədbirlərin təşkilinə dair müzakirələr aparılıb.

Toplantıda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, Respublika Hərbi Prokurorluğunun nümayəndəsi, ədliyyə polkovniki İlyas Rzayev, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının işçi qrupunun üzvü Vasif Quliyev, Siyasi Psixologiya



Mərkəzinin əməkdaşı Zaur Əfəndiyev, "Loqos" Psixoloji və Nitq İnkişafı Mərkəzinin nümayəndəsi Rafiq Allahverdiyev, eləcə də Müdafiə Nazirliyinin müxtəlif idarələrinin və hərbi hissələrin zabitləri çıxış edərək ordunun döyüş qabiliyyətinin yüksəldilməsinə dair bir çox mövzular ətrafında fikir və mülahizələrini bölüşüblər.

2018-ci ildə mənəvi-psixoloji hazırlığın təşkili üzrə müvafiq tapşırıqlar bir daha iştirakçılara çatdırıldıqdan sonra toplantıya yekun vurulub.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

*Döyüş hazırlığı*

# Vərdişlər təlimdə qazanılır

*Ağ örpəyə bürünmüş dağlarda Vətənimizin keşiyini çəkən oğullarımızdan yenicə ayrılıb taborun dayaq məntəqəsinə qayıdırıq. Sinəsini namərd düşmənin zərbələrinə sipər edən, torpaqlarımızın hər qarışını göz bəbəyi kimi qoruyan, mənliyini uca tutan, dağ vüqarlı oğullarımızla görüşün hələ də təsir dairəsindəyik. Ətraf aləmin gözəlliyi də bizi ağuşuna alıb çox uzaqlara aparır. Alabəzək xalçaları xatırladan mənzərə, gurultu ilə axan dağ çayının yaratdığı xoş təəssürat, bir sözlə, hər şey göz oxşayandır.*



Çayın yaratdığı əsrarəngiz mənzərənin gözəlliyindən ayılmamış bizi müşayiət edən zabit Namiq Soltanov diqqətimizi atəş hazırlığı məşqinə yönəldir. Sürücü müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Natiq Əhmədov idarə etdiyi avtomobili təlim meydançasının yanında saxlayır.

Manqa komandiri müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Rəşad Haqverdiyev komandasını ağ bayrağın qaldırılması ilə şəxsi heyətə çatdırır. Heyət üzvləri müəyyən bir məsafəni qaçaraq qət etdikdən sonra uzanaraq döyüş vəziyyətini alır. Bundan sonra atış rəhbərinə atışa hazır olmaq haqqında məruzə edilir. Şəxsi heyət ardıcıllıqla tək-tək və sərbəst şəkildə atışı yerinə yetirir. Hər kəs atış rəhbərinə məlumat verir: "Atış zamanı nəzərdə tutulan hədəfi müşahidə edərək 6 güllə ilə məhv etdim. Sursat tam istifadə edildi. Atış zamanı heç bir ləngimə baş vermədi".

Tapşırıq yerinə yetirildikdən sonra atış rəhbərinin komandası ilə şəxsi heyət qaçaraq sıraya durur. Şəxsi heyətlə yaxından tanış olmaq imkanı qazanırıq.

Atış rəhbəri Rəşad Haqverdiyev söhbət zamanı bildirir ki, istənilən dərs, təlim prosesi qarşıya qoyulan vəzifələri yerinə yetirmək üçün bölmələrin silah və texnikanı mükəmməl mənimsəməsi ilə yanaşı, hərbi kollektivlərdə nizam-intizamın möhkəmləndirilməsi, şəxsi heyətin mənəvi-psixoloji hazırlığı, Vətənə hədsiz sədaqət, Azərbaycan Respublikası Konstitusiyasının və qanunlarının, hərbi andın, hərbi nizamnamələrin, Müdafiə nazirinin əmrlərinin tələblərinin yerinə yetirilməsi, qəhrəmanlıq, igidlik nümunələrinin geniş təbliği, döyüş ruhunun səviyyəsinin artırılması məqsədini daşıyır. Ona görə də günün nizam qaydasına uyğun olaraq şəxsi heyətin yüksək hazırlığa yiyələnməsi daim diqqət mərkəzindədir.

Gəncə şəhərindən hərbi xidmətə çağırılan əsgər Turqut Verdiyev söhbətə qoşularaq bildirdi ki, atəş hazırlığı dərslərində bizlərə ilkin olaraq atəşin əsasları haqqında məlumat verilir. "Onu da qeyd edim ki, bu dərs bizə pnevmatik silahların və əsasən də Kalaşnikov avtomatının vasitəsilə öyrədilir. Atış rəhbəri tərəfindən silahların iş prinsipi, hissə və mexanizmləri hər birimizə izah edildi. Ondan sonra 4 təlim nöqtəsindən ibarət olan mərhələləri uğurla keçdik."

Əsgər Arif Hüseynov isə söhbətə müdaxilə edərək bildirdi ki, birinci təlim nöqtəsində avtomatın hissə və mexanizmləri, ikinci təlim nöqtəsində avtomatın natamam söküLüb-yığılması və darağın doldurulub boşaldılması, üçüncüdə atəş, dördüncü təlim nöqtəsində isə pnevmatik silahlardan praktik atəş tapşırığının yerinə yetirilməsini həyata keçirdik.

Əsgər Yusif İsayevin sözlərinə görə, heç bir dövləti ordusuz təsəvvür etmək mümkün deyil. "Ordu ölkənin ərazi bütövlüyünün, suverenliyinin və müstəqilliyinin təminatçısıdır. Biz də bu gün iftixar hissi keçiririk ki, Azərbaycan dövlətinin ona layiq, onun müstəqilliyini qorumağa və möhkəmləndirməyə qadir güclü ordusu var və biz də bu ordunun əsgərləriyik."

Əsgərlər İlham Hüseynalızadə, Muraz Həsənov və Cavad Baxşəliyev də bildirdilər ki, biz öz torpaqlarımızı qoruyuruq, onun keşiyini çəkirik. "Bizim başqa ölkənin torpağında gözümüz yoxdur. Başqa ölkənin torpağını işğal etməmişik. Amma heç kimə imkan verməyəcəyik ki, bizim torpağımızda hökmranlıq etsin. Artıq Azərbaycan dövləti də güclü dövlətdir, ordusu da güclü ordudur. Azərbaycan əsgəri Ali Baş Komandanına, xalqına arxalanır və inanır. Lazım gəldiyi anda Azərbaycan torpaqlarının müdafiəsi uğrunda canımızdan keçməyə hazırıq."

**Kapitan
Məhəmməd ƏLİYEV,
"Azərbaycan Ordusu",
foto
Coşqun CƏFƏROVUNDUR**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

***12 yanvar 2018-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 131 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Dovex kəndində və adsız yüksəkliklərdə, İcevan rayonunun Berkaber, Paravakar kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq, Qazax rayonunun Kəmərli, Qızılhacılı, Cəfərli kəndlərində və adsız yüksəkliklərdə, Berd rayonunun Çinari kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam, Koxanəbi, Əsrik Cırdaxan, Muncuqlu kəndlərində və adsız yüksəkliklərdə, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Göyəli, Zamanlı kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Tağıbəyli, Şıxlar, Baş Qərvənd, Cəvahirli, Qaraqaşlı, Sarıcalı, Novruzlu, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Qorqan, Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

# Ruhu səngərdə əsgərdi

## Ağdamda Milli Qəhrəman Muxtar Qasımovun xatirəsi anılıb

Qışdı...

Sazaqdı. Günəş gah görünür, gah da buludların arxasına çəkilir. Nə yaxşı könül mülkümüzün günəşi belə deyil; Vətənə, torpağa ad olan dünyamızın hərarətidi bu günəş. Bu günəşi qara buludlar örtə bilməz. Bu günəş sıxıntılarımıza, acılarımıza təsəllidi, torpağın yaralarına - məlhəm... Ölümün gözünə kül ələyənlərdi, ölümü gözündən güllələyənlərdi, qara niyyətlinin gözünü ovub qara niyyətini kül ələyənlərdi şəhidlərimiz...



Qışdı. Xırdaca-xırdaca rüzgar əsir. Havada qar ayamı var - hələ yağmır. Tanıdığım qazilər, müharibənin ilk illərində Ağdamda xidmət edən zabitlər, əsgərlər Muxtar həkim haqqında danışanda kəlmələr dodaqlarını yandırardı. Danışanların ürəyinə yük olan təəssüfün giziltilərini canımda hiss edərdim, qayğıkeşliyi, təbibliyi yüzlərlə yaralının ölümdən qurtuluşu olan bir insanın istəyinin işığından baxardıq indi bu gün olan sabahlarımıza və Azərbaycan əsgərinin dalğalandırdığı bayrağın əzəmətini qəlbi paxırlara görk bilərdik...

Belə bir vətəndaş, belə bir zabit, belə bir həkim yaşasaydı, 60 yaşı olacaqdı; şəhid oldu Muxtar həkim. 34 yaşında. Quzanlıda, Mədəniyyət Evində Müdafiə Nazirliyi ilə Ağdam rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığıyla Müdafiə Nazirliyinin əməkdaşı, Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü Abdulla Qurbaninin ssenarisi və



rejissorluğuyla Azərbaycanın Milli Qəhrəmanı, tibb xidməti kapitanı Muxtar Qasımovun anım günüdü. Mahiyyəti şəhidə, şəhidliyə ehtiram, vətənpərvərlik duyğularını bütün çalarlarıyla yaşatma niyyəti olan bu tədbirdə el qədrini canından artıq bilən (S.Vurğun) bir insanın ömrünün anları xatırlanacaq...

... Səhnənin tərtibatı tədbirin mahiyyətinin açılmasına yardımçıdır: qara fon, qara fonu örtən göy, yaşıl, qırmızı rənglər. Bu üç rəngin vəhdəti Azərbaycan bayrağıdı - qaranlıqları Azərbaycan əsgərinin cəsarətiylə bu vəhdətin qüdrəti boğacaq. Bu rənglərin vəhdətinin işığına qarışan işıq şəhidlərin ruhundan süzülən işıqdı. Şəhid Milli Qəhrəmanı tanıyanlara da, tanımayanlara da bir daha tanıdır. Aparıcı (A.Qurbani) xatırladır ki, Muxtar Qasımov Tibb institutunu bitirib. Xankəndidə işləyib. Ağdamda vəziyyət gərginləşəndə ora qayıdıb. Xocalı faciəsi onun da varlığını sarsıdıb: Xocalıda hər yandırılan evi öz ocağı, öldürü-lənlərin, ağ qar-da-göy buzda donanların hər birini öz əzizi bilib. Orduda xidmətə başlayıb - səhra hospitalının həkimi olub...

...Naxçıvanik, Aranzəmin, Pircamal, Ağbulaq uğrunda ağır döyüşlər gedirdi. Tibb xidməti kapitanı Muxtar Qasımov səhra hospitalında qərarlaşa bilmirdi. Ürəyi onu döyüşlərə çəkməkdəydi - yaralananların yanına. "Burada mənsiz keçinə bilərlər. Vaxtında ilk yardıma ehtiyacı olanları göz görə-görə itiririk...". Bu ağrılar yapışmışdı vətəndaş Muxtar Qasımovun duyumunun yaxasından. Getdi. Neçə-neçə yaralının ömrünə çökən ölümün "gözlərini ovucuna tökdü". Və... şəhid oldu Muxtar həkim...

Həyat yoldaşı Mətanət Abbasova Muxtar həkimin yolunu davam etdirib, hospitalda xidmət edib.

"Muxtar həkim" elegiyası, elegiyanın

*Kükrəyirdi heysiyyəti,*
*Qələbəydi son niyyəti.*
*Torpaq oldu vəsiyyəti, -*

kimi misraları, Abdulla Qurbaninin seçimində elegiyanın bədii yükünü çəkən musiqi, Silahlı Qüvvələrin Mahnı və Rəqs Ansamblının solisti gizir Elçin Məmmədovun ifasında ilk dəfə səslənən bu əsər tədbirin mahiyyətini düşüncələrə hopdurur: şəhidlərimizin ruhu Böyük Qələbəyəcən səngərlərdə olacaq, Qələbədən sonra - dövlət sərhədlərimizdə...

...Ürəyinin hökmüylə tədbirə gələnlər mədəniyyət evinin foyesində Milli Qəhrəmanın ömrünü (həm də hərbçi ömrünü!) tarixləşdirən stendin (şəkillər, sənədlər) qarşısında ayaq saxlayır. Baxışlar danışır şəkil-baxışla. "Ayağımdan, çiynimdən yaralanmışdım. Özünü yetirdin, Muxtar həkim. Sarğılar qoydun. Gözlərimə çökən qaranlıq aramla azalırdı. Dar macalda əllərindən öpmək istədim, qoymadın, alnımdan öpüb uzaqlaşdın. Başqa yaralıların hoyuna yetişməyə tələsdin..." - gözləri dolub-boşalan orta yaşlı kişinin pıçıltısına ayaq saxlayıram. Qəhərlənib. Baxışlar danışmaqdadı. Onu bu biçim kövrəklikdən ayırmaq istəmirəm. Ayıra bilməyəcəm...

Tanımadığım, tanıya bilmədiyim Qarabağ müharibəsi veteranının təəssüf dolu göynərtili pıçıltısını "92-nin yayından bu yana yaşadığım ömrü sən qaytardın mənə, Muxtar həkim..." - pıçıltısı tamamlayır. "İkisi də Azərbaycan əsgəri olub. İllərlə Muxtar həkimin ruhuna ünvanlanan yüzlərlə minnətdarlıq eşidəcəyik" - düşünürəm. Bir daha əmin oluram ki, el qədrini canından daha əziz bilənlər əbədi bir nəğmə kimi yaşayır, yaşadılır...

Gizir Ağabala Abdullayev "Gözlə məni" mahnısını oxuyur. Mahnının kövrəkliyi öz yerində, tədbirin fəlsəfəsi kimi dinlənir. Xoreoqrafik rəqslə təqdim edilən "Gözlə məni" kəlmə-kəlmə düşüncələrə hopur; Muxtar həkimin adından oxunur elə bil. Şəkil - Muxtar həkimin baxışları deyir bu kəlmələri. Gözləyəcəyik. Əzizləri də gözləyəcək, gözləyir, biz də, döyüşçü dostları da. Şuşada gözləyəcəyik, Cıdır düzündə gözləyəcəyik, İsa bulağında, Qırxqız yaylağında, Şüküratazda, Ərgünəşdə, Kirsdə, Yazı düzündə, ... gözləyəcəyik. Özü qayıtmayacaq. Ruhu sıramızdadı; ruhu səngərdə əsgərdi Muxtar həkimin, döyüş növbətçiliyindədi...

Aşıq Alının "...Ölüncə gözlərəm səni" misrası düşür yadıma; Mətanət xanım Muxtar həkimi bir ömür gözləyəcək...

...Vizual görüntülərin müşayiəti ilə şəhidliyindən bir gün əvvəl Azərbaycan televiziyasında Müdafiə Nazirliyi Sənədli və Tədris Filmləri Kinostudiyasının əməkdaşlarına müsahibəsi getmişdi. Aparıcının kiçik, düşündürücü remarkasıyla həmin müsahibə səsləndirilir. Zalda hıçqırıqlar eşidilir - Muxtar həkimin heç zaman unudulmayacaq səsi əzizlərinin - bacısı Elmira Qasımovanın, həyat yoldaşı Mətanət Abbasovanın, onu yaxından tanıyanların, xidmət yoldaşlarının - ehtiyatda olan tibb xidməti polkovnik-leytenantı Adil Eyvazovun, ehtiyatda olan tibb xidməti kapitanı Məmməd Nağıyevin, Qarabağ müharibəsi veteranı Cahid Əliyevin, Qarabağ müharibəsi Veteran Qadınlar Təşkilatının sədri Radə Abbasın,... gözlərindən yaş dərir. Nə deyirdi Muxtar həkim? - Vətəni sevin deyirdi, Vətənin hər qarış torpağını qoruyun, torpaqlarımızı işğaldan azad edin. O günə kimi şəhidlərin ruhuna rahatlıq yoxdu...

Və ani səssizlikdən sonra zal dalğalanır. Rayon ictimaiyyətinin nümayəndələri, tibb xidməti kapitanı, Azərbaycanın Milli Qəhrəmanı Muxtar Qasımovun son kəlmələri bu günün zabitlərinin, əsgərlərinin döyüş andına dönür: torpaqlarımızı işğaldan azad edəcəyik!..

*...ağ dama,*
*yol almışıq Ağdama,*
*Hünər göstər, yağının*
*gözlərinə ağ dama!*

Bu biçim möhtəşəmliklə keçən tədbirin mahiyyəti deyir ki, "Yağıların gözlərinə ağ damacaq"...

Adil Eyvazov danışır, Məm-



məd Nağıyev, Cahid Əliyev, Radə Abbas danışır. Hamısının səsində qəhər qarışıq qürur var, sevgi var. Hər biri Muxtar həkimin vətənpərvərliyindən, Ağdama, Ağdamın timsalında Vətənə sevgisindən - Vətən sevgisindən, dostluğa sədaqətindən, xeyirxahlığından,... danışırlar.

Hərbi hissənin zabiti mayor Qəmbər Orucovun qətiyyətlə dedikləri hamını bir inama kökləyir: Azərbaycan əsgəri Ali Baş Komandanın əmrinə hazırdır!..

Hər birinin baxışında çırpınan, uçunan qəhərin bir gözü toplaşanlardadı, bir gözü səhnədə - ana-ana, yana-yana xatırlanan Muxtar həkimin şəkil baxışlarındadı. 26 il əvvəlin qətiyyətinə, ürəyinin gözü ilə baxır baxanlar, hiss edilməsi çətin olmayan nigaranlığı - bu nigaranlıq torpaqlarımıza dartınan niyyətə görədi - duyur...

"Qarabağ şikəstəsi"nin (Nigar Rəhimova, Yaqut Xəlilzadə) sonluğunda "Ölürəm" kəlməsi əvəzinə "gəlirəm" kəlməsi eşidilir. İştirakçıların "Gəlirik!" kəlməsi Muxtar həkimin də dinləyə-dinləyə düşündüyü, düşünə-düşünə dinlədiyi bu möhtəşəm zərb-muğamın ahənginə qarışır. Mənə belə gəlir ki, bir azdan bu kəlmə səngərlərdə də səslənəcək...

Qələbə ovqatı yaşanılır. Bu ovqatı illərlə yaddaşlarda yaşayacaq bu tədbir yaşadır. Muxtar həkimin anım günüdü. Yaşasaydı, 60 yaşı olardı. Ömürlərə paylanan 34 illik ömrə ehtiramdı bu tədbir. Aparıcının dediyi hər bayatı düşüncələrimi təzədir: Azərbaycanın Milli Qəhrəmanı Muxtar Qasımovun övladlarının sayı Silahlı Qüvvələrimizin əsgərlərinin sayı qədərdi...

Bu bayatılar aparıcının ağrılı, ağrıdıcı kəlmələrində sezilən, hiss edilən, duyulan, yaşanan, ürəklərə sarılan insafsız təəssüfün davamı kimi dinlənilir.

...Aparıcı Səməd Vurğunun bir misrasını xatırladır: "Dolan bulud boşalacaq". Xatırlatma həm də "Çökən duman dağılacaq" kimi anlaşılır - müharibə başa çatacaq, həm də Azərbaycan əsgərinin qəti qələbəsiylə!..

Tibb xidməti kapitanı, Azərbaycanın Milli Qəhrəmanı şəhid Muxtar Qasımovun bacısı Elmira Qasımova, həyat yoldaşı ehtiyatda olan tibb xidməti polkovniki Mətanət Abbasova bu kövrək, kövrək olduğu qədər də qürurverici tədbirə görə təşkilatçılara dərin minnətdarlıqlarını bildirirlər...

Ağdam rayon İcra Hakimiyyəti başçısının müavini Allahverən Əliyev belə möhtəşəm tədbirə görə Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlığını bildiri.

Aparıcının təbirincə desək, tibb xidməti kapitanı, Azərbaycanın Milli Qəhrəmanı şəhid Muxtar Qasımovun anım günü mükəmməl vətənsevərlik dərsi kimi başa çatır...

...Qışdı...

Sazaqdı..

Havada qar qoxusu var. Qar yağmır. Tədbirin ehtiram hərarəti göy üzünü bürüyən qar buludunu dağıdır...

...On-on iki yaşlı bir uşağın səsini eşidirəm:

Səngərdə əsgərdi ruhun,
Muxtar həkim,
Muxtar həkim!..

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**

*"Açıq qapı" günü təəssüratları*

# "Hamımız Vətənimizin ərazi bütövlüyü üçün vuruşmağa hazırıq"



Ənənəvi olaraq hər bayram günündə hərbi hissələrdə "Açıq qapı" günü tədbirləri keçirilir. Belə tədbirlər ordu ilə xalqın sıx münasibətinin, birliyinin sübutudur. Valideynlərin sevincinə səbəb olan "Açıq



qapı" günü Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə "N" hərbi hissəsində də keçirildi. Sıra meydanında rəqslər edildi, mahnılar oxundu. Valideynlər hərbi xidmətdə olan övladlarıyla görüşdülər. Görüş zamanı "Əsgər balam", "İgid oğlum", "Əsgər qardaşım" kimi səslər adama xoş hisslər bağışlayırdı. Bu mənzərəyə baxdıqca qürurlanırdım. Axı bir valideyn üçün övladının Vətənə xidmət etməsindən, əsgər forması geyməsindən qürurlu nə ola bilər ki? Hamı bu vəzifəni layiqincə yerinə yetirməli, Vətənimiz Azərbaycanın keşiyində dayanmalıdır.

Biz də valideynlərin sevincinə şərik olmaq üçün onlarla həmsöhbət olduq. Əsgər Hikmət Əhmədzadənin valideyni, Gəncə şəhərindən gələn Tələt Əhmədov belə tədbirlərin təşkili üçün yuxarı komandanlığa minnətdarlığını bildirdi. "Mən fəxr edirəm ki, övladım Azərbaycan Ordusunda xidmət edir. Bu gün hərbi hissələrdə hər bir şərait yaradılıb. Özümüz bunun canlı şahidi oluruq. Əsgər yataqxanasına, yuyunma otaqlarına, yeməkxana və camaşırxanaya baxmışıq. Tələbkar və qayğıkeş komandirlər övladlarımıza bir valideyn kimi yanaşırlar. Mənim tək bir istəyim var - güclü ordumuz qısa vaxtda Ali Baş Komandan İlham Əliyevin əmri ilə Qarabağımızı düşməndən azad etsin."

Adının çəkilməyini istəməyən əsgər anası da öz fikirlərini bizimlə bölüşdü:

- Mən igidimi cəng meydanına göndərdim, övladımı bu günlər üçün böyütdüm. Oğlum indi bu hərbi hissədə xidmət edir, mən isə bir igidin anası kimi bu meydanda dayanmışam. Ərənlərimizə, aslanlarımıza xınanı könüllü olaraq yaxıb xidmətə göndəririk. Qanla, göz yaşıyla yuyulmuş şəhidlik yolundayıq. Bu müstəqilliyi şəhidlərimizin qanı bahasına qazanmışıq. Və bu gün bunu qorumaq bizim və övladlarımızın müqəddəs borcudur.

Digər əsgər valideyninə yaxınlaşıram. Şövqi Orucov Bakı şəhərinin Suraxanı rayonundan gəlib. Oğlu Səbuhi artıq 3 aydır hərbi xidmətdədir. Valideyn oğlunun ön xətdə xidmətindən qürur yaşamasından, millətimizin həmişə birlik və bərabərlik içərisində olmağından danışdı:

- Vətəni dəyərləndirən ünsürlərdən ən əhəmiyyətlisi millətdir. Əgər bir xalq birliyini qoruya bilməsə, tarix səhifəsindən silinəcəkdir. Vətən və millət sevgisi ayrılmazdır. Vətən torpaqları millətin sahib olduğu ən böyük güc və istinaddır. Vətəndə birlik və bərabərlik içərisində, azad olaraq yaşamaq əcdadlarımızın tarix boyu mənimsədiyi və əldə etdiyi ən böyük qazanc olub.

Valideyn, həmçinin torpaqlarımızın azadlığı üçün hamının sarsılmaz birliyə malik olduğunun zəruriliyini vurğuladı: "Bir-birimizə dəstək olaraq ölümdən belə qorxmadan torpaqlarımızı işğaldan azad edəcəyik. Hər zaman yeni igidlər doğular. Oğullarımız heç vaxt torpaqlarımızın işğalda qalması ilə barışmayacaq. İgidlərimiz yenə də Qarabağ çöllərində at oynadacaq. Bu günlər çox uzaqda deyil. Biz hamımız Vətənimizin azadlığı üçün vuruşmağa hazırıq."

Bəli, bu gün Azərbaycanımızın azadlığı uğrunda təkcə ordumuz yox, xalqımız da səfərbərdir. Ali Baş Komandanımızın rəhbərliyi altında xalqımız ordusu ilə birlikdə torpaqlarımızı düşməndən azad edəcəkdir.

**Baş leytenant**
**Məhəmməd NƏSİRLİ,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**C.CƏFƏROVUNDUR**

# Müdafiə Nazirliyi ilə ictimaiyyət arasında səmərəli əlaqələr qurulub

*Ötən ilin dekabr ayı ərzində nazirlik ilə müxtəlif dövlət, icra hakimiyyəti strukturları, eləcə də yerli və xarici qeyri-hökumət təşkilatları, ictimai qurumlarla birlikdə hərbi hissələrdə müxtəlif mövzuda tədbir və layihələr həyata keçirilib. Müdafiə Nazirliyinin təşkilatçılığı ilə Şəmkir, Ağdaş, Göygöl, Füzuli, Beyləqan, Bərdə, Tovuz, Qazax, Qusar və Xocavənddə hərbi vətənpərvərlik mövzusunda 13 tədbir keçirilib.*

Bu barədə Müdafiə Nazirliyinin Mətbuat Xidmətindən ötən il ictimaiyyətlə əlaqələr sahəsində nazirlik tərəfindən həyata keçirilən tədbirlərlə əlaqədar AZƏRTAC-ın sorğusuna cavab olaraq bildiriblər.

Qeyd olunub ki, dekabrda Gənclər və İdman, Mədəniyyət və Turizm, Səhiyyə nazirlikləri, Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər və Bilik fondları, Bakı Dövlət, Azərbaycan Dövlət İqtisad universitetləri, Mətbuat Şurası, Beynəlxalq Avrasiya Mətbuat Fondu, Yeni Azərbaycan Partiyasının Nəsimi və Nizami rayon təşkilatları, "İrəli", "Xocalı Soyqırımını Tanıtma" İctimai birlikləri və digər qurumların nümayəndələrinin iştirakı ilə cəbhəboyu zonada yerləşən hərbi hissələrdə, eləcə də xüsusi təyinatlı təhsil müəssisələrində 20-dən artıq tədbir təşkil olunub, şəxsi heyətlə görüşlər keçirilib.

Dekabrda ictimailəşdirilməsi məqsədilə Müdafiə Nazirliyi tərəfindən 127 rəsmi məlumat, 83 foto, 4 video material hazırlanaraq kütləvi informasiya vasitələrinə ötürülüb, media nümayəndələrinin 7 sualı cavablandırılıb. Televiziya kanalları tərəfindən çəkilişlər aparılmasına 3 icazə məktubu verilib. Təşkil edilən tədbirlərin işıqlandırılması üçün televiziya kanalları və informasiya agentlikləri Bakıda və cəbhəboyu zonada yerləşən hərbi hissələrdə keçirilən 12 tədbirə dəvət olunub.

Müdafiə nazirinin təsdiq etdiyi tədbirlər planına uyğun olaraq, dekabrın 30-da Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni İl münasibətilə hərbi hissələrdə əsgər valideynləri və yaxınları üçün "Açıq qapı" günü keçirilib.

# Müdafiə Nazirliyinə daxil olan heç bir müraciət diqqətdən kənar və cavabsız qalmır

*Ötən il Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə daxil olmuş müraciətlərə baxılması, hərbi qulluqçuların, onların ailə üzvlərinin və vətəndaşların qəbulu işi Azərbaycan Respublikasının Konstitusiyasına, "Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında", "Hərbi qulluqçuların statusu haqqında" qanunlara və Müdafiə nazirinin müvafiq əmrlərinə əsasən həyata keçirilib.*

Müdafiə Nazirliyinin Mətbuat Xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Respublikasının ali dövlət hakimiyyəti və idarəetmə orqanlarından, nazirliklərdən, ictimai təşkilatlardan və vətəndaşlardan nazirliyə daxil olmuş 50 minədək müraciət qanunvericiliklə müəyyənləşdirilən qaydada aidiyyəti üzrə nazirliyin baş idarə, idarə və xidmətlərində baxılaraq həll edilib. Bəzi müraciətlər icraya nəzarət çərçivəsində nəzarətə götürülüb.

Müraciətlərdə göstərilən məsələlərin mahiyyəti diqqətlə öyrənilib, onların yaranma səbəbləri təhlil edilib, müvafiq tədbirlər həyata keçirilib. Həmçinin hərbi qulluqçuların və onların ailə üzvlərinin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə aidiyyəti dövlət orqanları və müvafiq qurumlarla əlaqələr yaradılıb.

Vətəndaşların müraciətlərinə baxılması işinin təkmilləşdirilməsi və elektron xidmətin təşkili məqsədilə Müdafiə Nazirliyinin "mod.gov.az" rəsmi internet səhifəsinin "Müraciətlər" bölməsində nazirliyin rəhbər şəxslərinin qəbul günləri, vaxtı, yeri və əlaqə telefonları, eləcə də "pressmd@mod.gov.az" elektron poçt ünvanı göstərilib.

Vətəndaşlar "Müraciətlər" bölməsinə daxil olaraq onları maraqlandıran 5 minədək sual, təklif, sorğu və şikayəti internet vasitəsilə Müdafiə Nazirliyinə ünvanlayıb. Müraciətlərin qəbul olunması barədə vətəndaşlara dərhal məlumat verilib, onların mahiyyəti üzrə araşdırılması və cavablandırılması təmin edilib. Bundan əlavə, nazirliyin 912 nömrəli "Qaynar xətt"inə daxil olan müraciətlər araşdırılaraq bir qismi operativ qaydada həll edilib, digərləri isə müvafiq qaydada icra olunub.

Ötən il Həzi Aslanov adına Mərkəzi Zabitlər Evində, eləcə də hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrində təyin olunmuş günlərdə və saatlarda 2 min nəfərdən artıq vətəndaşın qəbulu keçirilib. Qəbul zamanı daxil olmuş müraciətlər araşdırılıb və müvafiq tədbirlər görülüb.

Hərbi qulluqçuların, onların ailə üzvlərinin və vətəndaşların qəbulu və müraciətlərinə baxılması işinin təkmilləşdirilməsi, həmçinin müraciətlərin icrasına nəzarətin daha da gücləndirilməsi məqsədilə Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən müvafiq göstəriş verilib.

AZƏRBAYCAN ORDUSU

Sosial həyat

# “Əsgərlərimizə qulluq etmək bizim mənəvi borcumuzdur”

*"N" hərbi hissəsinin sosial şəraiti ilə tanışlığım zamanı şəxsi heyətin məişətinin müasir standartlar səviyyəsində təşkil olunduğunu hiss etdim. Ən son avadanlıqlarla təchiz olunmuş yataqxana, hamam-camaşırxana, ideoloji otaq, idman və digər məişət otaqlarında ürəkaçan şərait hər bir gəncə yüksək diqqət və qayğı göstərildiyinə bir daha sübutdur.*



Cavabdeh zabitlərdən baş leytenant Arif İsmayılovla birlikdə əsgər yeməkxanasına daxil oluruq. Yeməkxananın dizaynı, əlyuma yeri, səliqə-sahman, maraqlı təbiət təsvirləri, yeni mətbəx avadanlıqları və s. diqqətimi cəlb edir. Burada çalışanların da təmiz geyim formaları göz oxşayır. Yeməkxana növbətçisi 2014-cü ildən ordu sıralarında xidmət edən gizir Elmar İsrafilov ərzaq normalarına uyğun olaraq xörəklər hazırlandığını vurğulayır.

- Bacarıqlı aşpazlarımız menyuya uyğun olaraq milli mətbəximizin gözəl təamlarından: dolma, küftə, plov və s. xörəklər, həmçinin fəslə uyğun salatlar, meyvə şirələri hazırlayırlar. Bişirilən xörəklərin keyfiyyətinə ciddi nəzarət edilir, - Elmar deyir.

Prezident, Ali Baş Komandan İlham Əliyevin tapşırığı ilə ordu quruculuğunda həyata keçirilən ən mühüm islahatlardan biri də hərbi hissələrdə təsərrüfat-məişət işlərinə mülki işçilərin cəlb olunmasıdır. Əsgər yeməkxanasında təcrübəli aşpazların çalışması keyfiyyətli və dadlı yeməklər hazırlanmasına zəmin yaradır. Hər bir ananın ən sevdiyi məşğuliyyət övladına dadlı yeməklər hazırlamaqdır. Ona görə də bu insanların hər biri həm sevdiyi peşə ilə məşğul olur, həm də özlərinə övlad, arxa-dayaq bildikləri əsgərlərimizə qulluq edirlər. Həmçinin bu addım əsgərlərin yeməkxana və digər təsərrüfat fəaliyyətindən tam şəkildə kənarlaşdırılaraq yalnız hərbi təlimdə döyüş vərdişləri qazanmalarına şərait yaratdı.

Əsgərlərə öz övladları kimi xidmət etdiklərini deyən işçilərlə söhbətləşirəm. Baş aşpaz Sevda Əliyeva bildirir ki, aşpazların hər biri bacarıqlı və təcrübəli qadınlardan seçilib və hər gün əsgərlərə milli yeməklər hazırlanır.

- Biz sanki öz övladlarımıza qulluq edirik, - Sevda xanım deyir. - Səkkiz ildən çoxdur ki, burada işləyirəm. Həm evimə çörək pulu qazanıram, həm də bizləri düşməndən qoruyan oğullarımıza qulluq edirəm. Vətən qoruyucularına qulluq etmək həm də mənəvi borcumuzdur və bu işdən şərəf duyuram. 14 yaşlı nəvəm də hərbçi olmağın arzusundadır. Bir gün o da bu igidlərin sırasında dayanacaq. O, pilot olmaq istəyir. Arzu edirəm ki, tezliklə torpaqlarımız işğaldan azad olunsun və nəvəm təyyarəsi ilə Qarabağ səmalarını xoş niyyətlə dolaşsın.

Söhbətləşdiyim baş aşpaz köməkçisi Gülnarə Bayramova və aşpaz İntizar Şükürlü də təcrübəli işçilərdir. Onlar da əsgərlərin qulluğunda dayanmaqdan qürur duyduqlarını bildirirlər. "Həm hərbi hissənin işçisi, həm də gələcəyin əsgər anası kimi bütün analara səslənirəm ki, övladları sarıdan arxayın olsunlar. Burada onlara doğma münasibət, qayğı göstərilir. Yataq dəstləri, paltarları vaxtlı-vaxtında yuyulur, tez-tez həkim yoxlanışından keçir, keyfiyyətli yeməklərlə qidalanırlar. Yataq otaqlarında istilik sistemləri işləyir, bir sözlə, heç nədən korluq çəkmirlər", - Gülnarə xanım deyir.



Növbəti həmsöhbətim nümunə üçün hazılanmış yeməklərin dadına baxan tibb məntəqəsinin giziri Şahin Məmmədovdur. Hazırlanan yeməklərin keyfiyyətli olmasına, ətrafda gigiyenik qaydalara riayət olunmasına nəzarət etmək üçün hər gün yeməkxanaya növbətçi həkim təyin olunduğunu öyrənirəm.

- Gördüyünüz kimi, bu gün milli mətbəximizin şahı sayılan plov hazırlanıb. Yanında lobya supu, müxtəlif tərəvəzlərdən hazırlanmış salat, meyvə şirəsi də var. Hər birinin dadına və keyfiyyətinə söz ola bilməz. Yeməklərin belə dadlı və yüksək kalorili olmasında aşpazların bacarığı ilə yanaşı, verilən ərzaqların da təzə və keyfiyyətli olması mühüm rol oynayır. Burada həm əsgərlər, həm də zabit və gizirlərimiz yemək yeyirlər. Mən də bu dadlı yeməklərlə qidalanıram və indiyə kimi narazı qalmamışam. Bütün bölmələrdə istər həkimlər, yeməkxana və digər təsərrüfat işçiləri, istərsə də komandirlər əsgərlərin qayğısına qalır, onlara doğma münasibət bəsləyirlər.

Nahar vaxtı çatır. Yeməkxananın qarşısından gələn müsiqi sədaları qeyri-ixtiyari məni həyətə çıxmağa vadar edir. Bu səslər nizami sıra yerişləri və mahnı ilə yeməkxanaya tərəf addımlayan şəxsi heyətin səsi idi. Onlar yeməkxananın qarşısında, təyin olunmuş yerdə düzüldülər. Hərbi hissə növbətçisi bölmələr üzrə cavabdehlərdən məruzələri dinlədikdən sonra "nuş olsun" deyərək şəxsi heyətin yeməkxanaya daxil olması üçün komanda verir. Sıra ilə içəri girən əsgərlər əvvəlcə əl yuma yerində əllərini yuyur, sonra yeməklərini götürüb əyləşirlər.



Yaradılan şəraiti və göstərilən qayğını əsgərlərdən də eşidirəm. Yemək götürüb onlarla birgə əyləşirəm. Hazırlanan təamların dadına baxdıqca hiss edirəm ki, yediklərim çox dadlıdır. Ətrafımda əyləşənlərin təbəssümündən də başa düşürəm ki, hazırlanan xörəklərdən hər kəs razıdı. Söhbətləşdiyim hər bir əsgər heç nədən korluq çəkmədiklərini deyir. "Hər cür şəraitimiz var, buna görə də çalışırıq ki, xidmətimizi layiqincə yerinə yetirək. Göstərilən etimadı uğurlu xidmətimizlə doğrultmaq üçün əlimizdən gələni edirik. Dərslərimizdə fəal olub, öyrədilən hərbi bilikləri və vərdişləri, silah və texnikalarımızın taktiki, texniki xüsusiyyətlərini, istifadə qaydalarını həvəslə öyrənirik", - əsgərlərin hər biri deyir.

Hərbi hissədə tanış olduğum yüksək məişət şəraiti bir daha göstərir ki, dövlətimizin diqqət və qayğısı nəticəsində Azərbaycan Ordusunun bütün bölmələrində şəxsi heyətin sosial təminatı yüksək səviyyədədir.

**Leytenant
Mahmud MÖHBALIYEV,
"Azərbaycan Ordusu"**

Ordu və cəmiyyət

# "Müharibə mövzusunda yazılmış əsərlərdən qələbə qoxusu gəlməlidir"

*Müsahibimiz Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin prorektoru, sənətşünas Məryəm Əlizadədir.*



**- Məryəm xanım, cəmiyyətimizdəki hərbi vətənpərvərlik ovqatını necə dəyərləndirirsiniz?**

- Mən müəlliməm, müşahidələrimə əsaslanıb deyə bilərəm ki, torpağını sevən, yurdunu qoruyan vətənpərvər bir gənclik yetişib. Aprel döyüşləri gedən günləri yaxşı xatırlayıram. Gənclər həmin vaxtlar çağırış gözləmədən orduya yollanmaq istəyirdilər. Əgər həmin ərəfədə Ali Baş Komandanın əmri olsaydı, gənclərimiz torpaqlarımızı işğalçılardan azad etmək üçün döyüşlərə yollanardılar. Vətənpərvərlik insanda birdən-birə formalaşmır. Yaşadığımız mühit özü vətənpərvər gənclər hazırlayır. Dünənimizin tarixinə boylananda qəhrəmanlıqla dolu şərəfli səhifələr görürük. Qəhrəmanlıq ənənələri bu gün də gənclərin qanında yaşamaqdadır. Hazırda cəmiyyətdə vətənpərvərlik ovqatı yüksəkdir. Biz, müharibə şəraitində yaşayırıq, torpaqlarımızın 20 faizindən çoxu ermənilərin işğalı altındadır. Ona görə də həm tədris ocaqlarında, həm də cəmiyyətdə bu istiqamətdə çox ciddi işlər aparılır. Vətənimiz, müstəqilliyimiz naminə hamımız çalışmalıyıq.

**- Müharibələr zamanı hər birimizin üzərinə qaçılmaz vəzifələr düşür. Sizcə həmin günlərdə yazıçı və şairlər hansı addımları atmalıdırlar?**

- Müharibə gedən ölkədə qələbə naminə bir vətəndaş kimi şair, yazıçı və rəssamların da üzərinə müəyyən vəzifələr düşür. Düzdür, yaradıcı insanlar bu istiqamətdə müəyyən işlər görüblər, müharibə mövzusunda müxtəlif əsərlər yazılıb, filmlər çəkilib. Bu günlərdə mətbuat səhifələrində görkəmli yazıçı və dramaturq Elçin Əfəndiyevin bir məqaləsini oxudum. Yazıçı çox haqlı olaraq vurğulayır ki, son illər müharibə mövzusunda elə bir tutarlı, dünya ədəbiyyatı səviyyəsinə çıxarılması mümkün olan əsər yazılmayıb. Məncə, bu mövzuda elə əsərlər yaranmalıdır ki, onların bədii səviyyəsi yüksək olsun, insanları düşmən üzərinə səfərbər edə bilsin. Bu əsərlər hər birimizin içindəki vətəndaşlıq hissini oyatmağa təsir göstərməlidir. Ən başlıcası odur ki, müharibə mövzusuna köklənmiş əsərlərdən qələbə qoxusu gəlməlidir.

**- Necə fikirləşirsiniz, qələm silaha hansı anlarda çevrilməlidir?**

- Məncə qələm də silah kimi elə bütün zamanlarda güclü və kəsərli olmalıdır. Yeri gələndə, məqamı yetişəndə bu kəsər, bu itilik daha da artmalıdır. Müharibə şəraitində qələmi yalnız vətənpərvərlik mövzusu ovxarlamalıdır. Qələm, səs və söz böyük səfərbəredici gücə malikdir. Üçü vəhdətdə daha güclü və yenilməz olur. Müharibə vaxtı yerində və vaxtında deyilən söz çox şeyi həll edə bilər.

Müharibə dağıdıcı bir qüvvədir. Müharibə həyatın eroziyasıdır. Müharibə yüz illər ərzində qurulan şəhərləri bir neçə günün içində dağıdıb yerlə-yeksan edir. Mərmilər min illik tarixi abidələri bir göz qırpımında yer üzündən silir. Bu abidələr bəşəriyyət tarixinin nadir inciləridir. Müharibə tərəfdarı olanlar sanki insana və insanlığa qənim kəsiliblər, baş verən faciələrdən ibrət dərsi götürmək istəmirlər. Yer üzünün bütün humanist insanları müharibəni pisləməlidirlər. Görkəmli ziyalılar sinəsini irəli verib milli mənəviyyatımızın keşiyində dayanmalıdır. İnsanlara ölüm, bəşəriyyətə fəlakət gətirən müharibəyə "yox" deyilməlidir.

**- Bildiyimə görə, həyatınızın bir parçası Şuşa ilə bağlıdır.**

- Bakıda dünyaya göz açsam da, uşaqlığım Şuşada keçib. Yeddi il Şuşada, Malıbəylidə nənəmin yanında qalmışam. Mənim babam Səlim bəy olub. Onun həm Şuşada, həm də Malıbəylidə evi var idi. Mən özlərində tarixin izlərini yaşadan dekorativ sənət nümunələrini çox sevirəm. Marağımı görən yaxın qohumlar da harada qədim sənət əsərləri görürdülərsə, gətirib mənə verib deyirdilər ki, Məryəm, sən bunları qoru. Mən də imkan daxilində onları toplayırdım. Demək olar ki, həm Malıbəylidəki, həm də Şuşadakı evimizdə muzey yaratmışdım.

**- Şuşa və Malıbəyli ilə bağlı xatirələriniz bitib-tükənmək bilmir...**

- Birinci sinfin ilk aylarını Malıbəylidəki məktəbdə oxumuşam. Sonrakı illərdə isə yay tətillərində Qarabağa gedirdim. Beləcə, illər ötüb keçir, mən də yavaş-yavaş böyüyürdüm. O yerlərə çox bağlı bir insanam. Qarabağ mənim üçün çox doğmadır. Bu yaxınlarda Respublika Xalça Muzeyinin 50 illiyi ilə bağlı tədbirə qatılmışdım. Sənətşünas yoldaşlardan biri yaxınlaşaraq dedi ki, Məryəm xanım, xəbəriniz varmı ermənilər Amerikada xalça sənəti ilə bağlı beynəlxalq bir mərkəz yaradıblar. Həmin mərkəzin emblemində isə Malıbəyli kəndinin şəklini qoyublar. Çox məyus oldum. Malıbəyli kəndi xalçaçılığın ən qədim məskənlərindən biridir. İmmi nənəm el-obada ən məşhur xalça toxuyanlardan idi. Yaxşı xatırlayıram, görkəmli rəssam və xalçaşünas alim Lətif Kərimov tez-tez Malıbəyliyə gələrdi. O kənddə xalça sexi açmış və həvəskar qadınları bu işə cəlb etmişdi. Dəfələrlə də nənəmin yanına gəlib xahiş etmişdi ki, gedib o qadınlara xalça toxumağı öyrətsin. İmmi nənəm də bu böyük sənətkarın sözünü yerə salmazdı. Kənddə nənəmin barmaqlarının izi qalmış xalçalar çox idi. Qardaşımın oğlu, babamın adını daşıyan Səlim rəssamdır. O həm Malıbəylidəki, həm də Şuşadakı evimizin rəsmlərini çəkib. Həmin rəsmləri evimizin ən baxımlı yerindən asmışam. Onlara baxdıqca şuşalı, malıbəylili günlərim kino lenti kimi gözlərim önündən gəlib keçir. Bu həsrətə dözmək olduqca çətindir.

**- Tələbələriniz təhsillərini bitirəndən sonra hərbi xidmətə yollanırlar. Ordu sıralarında olarkən onlarla əlaqə saxlaya bilirsinizmi?**

- Tələbələrim təhsillərini başa vurandan sonra böyük həvəslə ordu sıralarına yollanırlar. Həmin günlərdə onların gözlərindən sevinc parlayır. Onları belə ovqatda görəndə ürəyim qürurla dolur. Sevinirəm ki, bu oğullar sabahımızın əsgərləri olacaqlar. Tələbələrim hərbi xidmətə gedəndə gəlib müəllimləri ilə görüşürlər. Hamısına xeyir-dua verirəm. Orduya gedən tələbələrimə Qarabağın xilaskarları kimi baxıram. Məzuniyyətə gələndə zəng vurub ordu həyatından həvəslə danışırlar. Onlardan xoş sözlər eşitdikcə ürəyim dağa dönür. Şükürlər ki, möhtərəm Prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin diqqət və qayğısı sayəsində ordu quruculuğunda uğurlu islahatlar həyata keçirilir. Nəticə göz qabağındadır. Hər şey kökündən dəyişilib, yenilənib. Bir vətəndaş kimi bu məni çox sevindirir.

**- Siz sənətşünassınız. Sənət və müharibə, yaxud əksinə, müharibə və sənət. Bunların bir-birinə təsiri, yaxud əks-təsiri varmı?**

- Müharibə sənətə də, ədəbiyyata da yeni mövzular verir. Görkəmli yazıçı Bextold Bredin müharibə mövzusunda "Kuraj ana və uşaqları" adlı məşhur pyesi var. Çox təsirli və düşündürücü əsərdir. Müharibə nədisə, nə qədər dağıdıcıdırsa, yazıçı onu yüksək bədii ustalıqla, həm də bütün çılpaqlığı ilə qələmə alıb. Mən arzu edərdim ki, bizdə də belə əsərlər yaransın. Tamaşaya baxanda da, pyesi oxuyanda da müharibəyə nifrət edirsən. Bu pyesdə sanki müharibə ilə sənət bir-birinə qovuşub. Əsəri oxuduqca təsvir olunan hadisələrdən təsirlənirsən, hisslərin coşur, fikirlərin dəyişir. Dünyaya başqa gözlə baxırsan. Bax, sənətin gücü də bundadır. Yazıçı diktə etmək istədiyi ideyanı oxucuya bədii vasitələrlə ustalıqla çatdırmalıdır.

**- Azərbaycan zabitinə, Azərbaycan əsgərinə sözünüz və arzularınız.**

- Azərbaycan Ordusunun şəxsi heyətinə xidmətlərində uğurlar və qələbələr arzulayıram. Xalqımız bu gün torpaqlarını qorumağı onlara etibar edib. İnanıram ki, zabit və əsgərlərimiz qəhrəmanlıqları ilə xalqın etimadını doğruldaraq bizi qələbələrlə sevindirəcəklər.

**Söhbəti yazdı:**
**Vahid MƏHƏRRƏMOV**

# Xəbərlər:
## hadisələr, faktlar

### İranın döyüş gəmisi Xəzər dənizində qəzaya uğrayıb



İrana aid döyüş gəmisi "Demavend" Xəzər dənizində qəzaya uğrayıb.

Ölkənin ən böyük döyüş gəmilərindən "Demavend"də 18 nəfər olub, onlardan altısı qəza zamanı dənizə düşüb.

Yerli mənbələrə görə, dənizə düşən altı nəfərdən dördü xilas edilib, lakin onlardan ikisi tapılmayıb. Buna görə də axtarış-xilasetmə tədbirləri davam etdirilir.

Qeyd edək ki, 2013-cü ildə dənizə endirilən döyüş gəmisinin uzunluğu 100 metrdir və 300 ton ağırlığındadır.

### Mərakeş ordusu döyüş hazırlığı səviyyəsinə gətirilib



Mərakeş ordusu "Polisario" separatçı təşkilatının fəaliyyəti nəticəsində Mavritaniya ilə sərhəddə yaranan gərginliyə görə döyüş hazırlığı səviyyəsinə gətirilib.

Qərbi Saxarada fəaliyyət göstərən separatçı "Polisario" təşkilatının son vaxtlar fəallaşması və Mərakeş-Mavritaniya sərhədində qanunsuz nəzarət-keçid məntəqələri qurması gərginliyə səbəb olub. Mərakeş "Polisario"nun son vaxtlar atdığı addımları BMT Təhlükəsizlik Şurasının qərarlarına hörmətsizlik və 1991-ci ildə əldə olunan atəşkəs razılaşmasına zidd hesab edir.

Mərakeş ordusu döyüş hazırlığı səviyyəsinə gətirilib və Mavritaniya ilə sərhəddəki Gergerat bölgəsi yaxınlığında toplanıb. Bölgəyə helikopterlər və hərbi texnika cəlb olunub.

### Sinay yarımadasının şimalında səkkiz terrorçu məhv edilib



Misir Daxili İşlər Nazirliyinin bəyanatında bildirilir ki, Sinay yarımadasının şimalında yerləşən Al-Ariş şəhərində Misirin hüquq mühafizə orqanları tərəfindən həyata keçirilmiş antiterror əməliyyatı zamanı səkkiz terrorçu məhv edilib.

Atışma zamanı məhv edilmiş terrorçular Sinayın şimalında bir sıra terror aktlarının iştirakçısı olublar. Müəyyən edilib ki, həmin silahlılar Al-Ariş şəhərindəki kimsəsiz ərazilərin birində silahsız istifadə etmək, partladıcı qurğular düzəltmək və əldəqayırma bombaların yerləşdirilməsi üsullarını öyrəniblər.

Al-Ariş şəhərinin Al-Risa rayonunda terrorçuların sığınacağında 5 ədəd avtomatik silah, 2 əldəqayırma bomba və külli miqdarda döyüş sursatı aşkar edilib.

### Pakistan müdafiə və kəşfiyyat sahələrində ABŞ-la əməkdaşlığı dayandırıb



Pakistanın müdafiə naziri Huram Dastgir Xan Vaşinqtonun İslamabada maliyyə yardımını dondurmaq qərarından sonra Pakistanın müdafiə və kəşfiyyat sahələrində ABŞ-la əməkdaşlığını dayandırdıqlarını bildirib.

Nazirin sözlərinə görə, Pakistan və ABŞ arasında nəzakətli və eyni zamanda açıq dialoqun zamanı gəlib.

Xatırladaq ki, ötən həftə ABŞ Dövlət Departamenti Pakistan hökuməti silahlı qruplaşmalara, o cümlədən "Hakkani" və Əfqanıstanda fəaliyyət göstərən "Taliban" hərəkatlarına qarşı qətiyyətli addımlar atanadək bu ölkəyə təhlükəsizlik sahəsində yardımı dayandırmaq qərarına gəlib. Pentaqonun Hərbi Əməkdaşlıq İdarəsinin nümayəndəsi Patrik Evans ABŞ-ın Pakistan üçün nəzərdə tutulan ən azı 900 milyon dollar vəsaiti dondurduğunu bildirib.

**AZƏRTAC-ın materialları əsasında**

AZƏRBAYCAN ORDUSU

# Minnətdarlıq

Dizlərimdə ağrılar hiss etsəm də, sağlamlığıma biganə yanaşıb ağrıların keçəcəyini düşünürdüm. Amma ağrılar azalmır, əksinə, bir az da şiddətlənirdi.

Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Poliklinikasına üz tutdum. Qeydiyyatdan keçib həkim Rəşid Əsgərovun qəbuluna yollandım. Həkim məni rentgen otağına göndərdi. Burada xəstəlik kitabçamda müayinənin nəticəsi barədə qeydlər aparılandan sonra həkimin yanına qayıtdım. Rəşid həkim müayinənin nəticələrini nəzərdən keçirəndən sonra fizioterapiyaya ehtiyac olduğunu dedi və bu barədə xəstəlik kitabçamda qeydlər aparıb məni ora istiqamətləndirdi.

Fizioterapiya bölməsində də məni gülərüzlə qarşıladılar. Həkimin təyinatı üzrə ayağımın diz nahiyyəsini fizioterapiya etməyə başladılar. Həm poliklinikada, həm də fizioterapiya bölməsində xəstələrə diqqət və qayğı ilə yanaşıldığını hiss etdim. Xəstələrə xidmət göstərən tibb personalının dilindən bu sözlər tez-tez eşidilirdi: "Bu gün özünüzü necə hiss edirsiniz?", "Narahatlığınız azalıbmı?" və sair. İnanıram ki, bu qayğı xəstələrə məlhəmdən daha çox şəfa verir.

Günlər keçdikcə dizlərimdəki ağrılar da azaldı. İndi bu sətirləri yazanda özümü daha yaxşı hiss edirəm. Düşünürəm ki, sağlamlığımın bərpa olunmasında fizioterapiya ilə yanaşı, həkim və tibb bacılarının diqqət və qayğısı, xoş münasibəti də böyük rol oynadı. Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Poliklinikasının rəisi polkovnik-leytenant Mehriban Quluyeva başda olmaqla, həkimlərdən Rəşid Əsgərova, Rüfət Hacıyevə, Şəfəq Bağırovaya, tibb bacısı Mailə Məmmədovaya və başqalarına dərin minnətdarlığımı bildirirəm.

**Vahid MƏHƏRRƏMOV,**
**ehtiyatda olan mayor**

# Gənclər hərbi xidmətə yollanıblar



*Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamına uyğun olaraq, 2018-ci il yanvarın 1-dən etibarən ölkəmizin hər yerində olduğu kimi, Abşeron rayonunda da gənclərin həqiqi hərbi xidmətə çağırışı başlayıb.*

AZƏRTAC xəbər verir ki, Abşeron rayon İcra Hakimiyyəti və Abşeron rayon Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti şöbəsinin birgə təşkilatçılığı ilə rayonun çağırışçı gənclərinin hərbi xidmətə yola salınması mərasimi keçirilib. Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Abşeron rayon şöbəsində təşkil olunan yolasalma mərasimində rayon icra hakimiyyəti başçısının müavini Fuad Cəbrayılov, rayon ictimaiyyətinin nümayəndələri, ağsaqqallar və valideynlər iştirak ediblər.

Mərasim Azərbaycanın Dövlət himninin səsləndirilməsi və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin xatirəsinin ehtiramla yad olunması ilə başlayıb.

Abşeron rayon İcra Hakimiyyəti başçısının müavini Fuad Cəbrayılov hərbi xidmətə yola salınan gəncləri təbrik edərək, ölkəmizin təhlükəsizliyinin və müdafiəsinin təmin olunmasında Azərbaycan Ordusunun müstəsna rolundan danışıb.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Abşeron rayon şöbəsinin zabiti Ceyhun Nəbiyev hərbi xidmətin hər bir gənc üçün müqəddəs borc olduğunu diqqətə çatdırıb.

Daha sonra valideynlər, müharibə veteranları və ictimaiyyət nümayəndələri çıxış edərək hərbi xidmətə yola salınan çağırışçılara uğurlar diləyiblər.

Gənclər də, öz növbəsində, Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini şərəflə qoruyacaqlarına söz veriblər.

Çıxışlardan sonra çağırışçı gənclər müqəddəs Qurani-Kərimin altından keçib, Azərbaycan bayrağını öpərək musiqi sədaları altında ruh yüksəkliyi ilə ordu sıralarına yola düşüblər.

# Azərbaycanın hərb tarixinə dair yeni kitab çapdan çıxıb




Azərbaycan Milli Elmlər Akademiyası Milli Azərbaycan Tarixi Muzeyinin elmi ekspozisiya və sərgilərin təşkili şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru Səbuhi Əhmədovun hərb tariximizə dair "Azərbaycan silahları IX-XVII əsrlərdə: təkamül və inkişaf" kitabı nəşr olunub.

Muzeydən AZƏRTAC-a bildiriblər ki, 538 səhifədən ibarət kitab Azərbaycan hərb tarixinin az məlum olan məqamına - IX-XVII əsr Azərbaycan silahlarına həsr edilib.

Nəşrdə Vətən tarixşünaslığında ilk dəfə arxeoloji, təsviri, yazılı mənbələr əsasında qeyd edilən dövrün Azərbaycan silahları təhlil olunur, onların xarakterik xüsusiyyətləri müəyyənləşdirilir. Eyni zamanda, kitabda 300-dən çox fotoşəkil, rəsm, miniatür təsvirləri verilib.

Tədqiqatın müxtəlif mənbələr əsasında aparılması silahların görünüşünü, strukturunu, adlarını müəyyənləşdirməyə imkan verir. Həmçinin beynəlxalq təsnifat sistemlərinə əsasən Azərbaycan silahlarının təsnifatı tərtib edilir.

Kitabın elmi redaktoru muzeyin direktoru, akademik Nailə Vəlixanlı, rəyçiləri tarix elmləri doktorları Şahin Fərzəliyev, Nurulla Əliyev, Tarix Dostiyev və tarix üzrə fəlsəfə doktoru Fərəh Hüseyndir.



*Hərbi texnikalar, silahlar*

# Kəşfiyyat gəmisi

18280 layihəli gəminin təməli 2004-cü ildə "Şimal tərsanəsi" gəmiqayırma zavodunda qoyulub. Bəzi səbəblər üzündən gəminin suya buraxılması 2013-cü ildə, 2014-cü il noyabrın 27-də isə gəminin hərəkət sınaqları həyata keçirilib. Rusiyanın Hərbi Dəniz Donanmasının tərkibinə daxil edilib.

Hərbi Dəniz Donanması Kəşfiyyat İdarəsinin rəisi vitse-general Xursa İvan Kuzmiçin şərəfinə adlandırılan ikinci gəminin təməli isə 2013-cü ilin noyabrında qoyulub, 2017-ci ilin mayında suya buraxılıb və Qara dəniz donanmasının tərkibindədir.

Kəşfiyyat gəmisinin əsas xüsusiyyətinə gəldikdə isə onun subasımı 2500 ton (digər məlumatlara görə 4000 tondur), uzunluğu - 96 m, eni -16 m, çökməsi - 4 metrdir. Maksimal sürəti 20 mil, üzmə uzaqlığı isə 16 mil sürətində 8000 milə qədərdir. Heyəti 120 nəfərdən ibarətdir. Layihə üzrə gəminin silahlanmasına 14,5 mm-lik pulemyotlar üçün iki kalibrli, dayaqlı pulemyot qurğusu, radiotexniki silahlanmasına isə rabitə aparatı, radiotexniki kəşfiyyat kompleksi, texniki vasitələrin aparat-proqram kompleksi, radiolokasiya aşkaredici və naviqasiya stansiyalarının, elektron uyğunluğunun təmin edilməsi üçün baza sistemi, zenit artilleriya və raket, informasiya mübadilə sisteminin idarəetmə sistemi daxildir. Naviqasiya radiolokasiya sistemi, inteqrallaşmış körpü sistemi, yanğınsöndürmə texniki vasitələri, televiziya verilişləri üzrə "Ekran-TSM" gəmi sistemi və s. daxildir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# İdman

## "Qarabağ" klubu təlim-məşq toplanışı üçün Antalyaya yollanıb

Ağdamın "Qarabağ" futbol klubu təlim-məşq toplanışı üçün Türkiyəyə yollanıb.

Antalya bölgəsində hazırlıq keçəcək Ağdam təmsilçisi Qurban Qurbanovun rəhbərliyi ilə altı yoxlama oyununa çıxacaq. İlk matçını yanvarın 17-də Rusiyanın "Kuban" klubuna qarşı keçirəcək "Qarabağ" bu görüşdən üç gün sonra Polşanın "Lexiya" komandası ilə üz-üzə gələcək.

Yanvarın 25-də isə iki oyunun keçirilməsi planlaşdırılıb. Azərbaycan çempionu öncə Makedoniyanın "Şkupi", ardınca Ukraynanın "Mariupol" klubları ilə qarşılaşacaq. Yanvarın 29-da Bosniya və Herseqovina təmsilçisi "Sarayevo" ilə qüvvəsini sınayacaq ağdamlılar son oyunlarını fevralın 3-də Monteneqronun "Mladost" komandasına qarşı keçirəcəklər.

Qeyd edək ki, "Qarabağ" fasiləyə "qış çempionu" kimi yollanıb. Ağdam klubu Premyer Liqanın geridə qalan 14 turundan sonra 37 xalla birinci pillədə qərarlaşıb və ən yaxın izləyicisi "Qəbələ"ni 6 xal qabaqlayıb.

## Yeniyetmə boksçular arasında Bakı brinciliyinə start verilib



Yanvarın 9-da yeniyetmə boksçular arasında açıq Bakı birinciliyinə start verilib. Boks Mərkəzində təşkil olunan yarışda 150-dək idmançı gücünü sınayır.

Turnirə paytaxt klubları ilə yanaşı, səkkiz rayon komandası da qatılıb. 2002-2003-cü il təvəllüdlü boksçular arasında təşkil olunan yarışda 14 çəki dərəcəsi üzrə qaliblər müəyyənləşəcək.

## "Azərreyl" "Çağırış kuboku" turnirində Rumıniyanın "Stiinta" komandası ilə qarşılaşıb



Bakının qadın voleybolçulardan ibarət "Azərreyl" komandası Avropa Voleybol Konfederasiyasının "Çağırış kuboku" turnirinin onaltıdabir final mərhələsinin cavab oyununda Rumıniyanın "Stiinta" komandasını qəbul edib.

Azərbaycan Voleybol Mərkəzində təşkil edilən görüş "Azərreyl" komandasının 3:0 (25:23, 27:25, 25:14) hesablı qələbəsi ilə başa çatıb. Bu komandalar arasında dekabrın 12-də Rumıniyada keçirilmiş ilk oyunda "Stiinta" voleybolçuları 3:1 hesabı ilə qələbə qazandığından cütün taleyi "qızıl set"də həll olunub. Bu setdə rəqib komanda Azərbaycan təmsilçisini üstələyərək iki görüşün ümumi nəticəsinə görə səkkizdəbir final mərhələsinə vəsiqə əldə edib - 15:13.

## Badmintonçularımız "İran Fəcr Beynəlxalq Çellenc" turnirində iştirak edəcəklər



Badmintonçularımız fevralın 5-8-də Zəncanda keçiriləcək "İran Fəcr Beynəlxalq Çellenc" turnirində iştirak edəcəklər.

Komandamız turnirdə beş badmintonçu ilə təmsil olunacaq. Orxan Qələndərov, Kənan Rzayev, Cahid Əlhəsənov, Səbuhi Hüseynov və Teymur Abbasov turnirin medalları uğrunda mübarizə aparacaqlar.

Ümumi mükafat fondu 25 min ABŞ dolları olacaq yarış şəxsi xarakter daşıyır. Sayca 25-ci dəfə keçiriləcək turnirdə, ümumilikdə 20 ölkənin təmsilçilərinin iştirakı gözlənilir. "İran Fəcr Beynəlxalq Çellenc" turniri Beynəlxalq Badminton Federasiyasının mövcud qaydaları əsasında keçiriləcək.

**AZƏRTAC-ın materialları əsasında**

**Baş redaktor**
polkovnik-leytenant İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
leytenant Günay TAĞIYEVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 6
Nüsxə 3550